

Nizami Gəncəvi

# Türküstan gözəlinin hekayəti



nəşriyyat evi Renessans-A

Bakı – 2019



Şeyda adlı incəzövqlü bir memar Bəhram şahın arzusuyla iki il gecə-gündüz işləyərək yeddi rəngə çalan, yeddi günbəzli nurlu bir saray tikdi.

Həftənin hər gününü bir ölkə gözəlinin şirin hekayətini dinləməklə keçirən Bəhram şah bazar günü sarı günbəzə Yağmənaz adlı Rum[1] gözəlinin görüşünə gəldi. Rum gözəli şahı salamlayıb öz hekayətinə başladı:

—Deyirlər, İraqda cah-cəlallı, qüdrətli bir şah varmış. Günlərin bir günü o münəccimlərdən öyrənir ki, haçansa qadınlardan onun başına bəla gələcəkdir. Bəxtinin uğursuzluğundan şikayətlənən şah elə o gündən qadınlardan uzaq gəzib tək-tənha yaşamağa başladı.

Sonralar tənhalıqdan, bu üzücü günlərdən bezikən şah kəniz alıb-satmaqla məşğul oldu.

Günlərin bir günü tacir şahın hüzuruna bir dəstə kəniz gətirdi. Xoştəbəssümlü, mələksimalı, aycamallı bir kənizdən şahın çox xoşu gəldi. Öyrəndi ki, o kəniz ağlı-kamalıyla hamını heyran qoyub. Lakin tacir bunu da əlavə etdi ki, aycamallı, xoştəbəssümlü bu pərinin kişilərdən zəhləsi gedir. Kim bu kənizi alırsa, xasiyyətindən narazı olub geri qaytarır.

—Şah, sizin qadınlardan xoşunuz gəlmir, onunsa kişilərdən. Belə olduqda ulduzunuz heç cürə barışmaz. Qorxuram ki, onu alıb, sonra yenə peşman olub qaytarasınız, – deyə tacir şahı fikrindən daşındırmağa çalışdı. Lakin şah inadkarlığından dönmədi. Kənizin məhəbbətini qazanmaq üçün Süleyman padşahla sevgilisi Bilqeyisin dastanından söz açdı:

—Süleymanla Bilqeyisin şikəst bir oğlu varmış. Gecə-gündüz dövləti ədalətlə idarə edən padşah doğruçuluğu, mərdliyi ilə hamının hörmətini qazanıbmış. Yetim-yesirə əl tuturmuş. Padşahın xeyirxahlığı əvəzsiz qalmır. Gün keçir, ay dolanır, kasıb-kusubun, kimsəsizlərin, köməksizlərin alqışı oğlunu sağaldır, gözünə işıq, dizinə taqət gətirir.





[1] – Şərq ölkələrinə işarədir.



Şahın söz-söhbəti kənizin çox xoşuna gəldi və söz verdi ki, həqiqəti olduğu kimi danışsın. Demə onun ailəsində uğursuz bir adət varmış. Ərə gedən bacılar bir qədərdən sonra dünyadan köçürmüş.

Şah кənizin sözlərinə qəlbən inansa da saf məhəbbətlə sevdiyi bu gözələ qovuşmaq, xoşbəxt olmaq istəyirdi. Aylar ötdü, şahın saf, təmiz, ülvi məhəbbəti kənizin ömrünə nəğmə dolu günlər gətirdi. Onlar qovuşub xoşbəxt ömür sürdülər.

Bəhram şah sarı rəng haqqında şirin xəyallara daldı.

Bir ömrün nəğməsini ötüb topağın çiyninə düşən yarpaqların, yeri-yurdu nurlandıran günəşin ziyası sarı rəngdədir. Çörəyin üzünə çəkilən sarı zəfəranın ətri xoş duyğular oyadır. Şamın şöləsi zülmətin bağrından nur zolağı salır, məclislərə, şənliklərə sevinc gətirir.







Uşaqlar üçün işləyəni:
**Abbasəli Sarovlu**

Rəssamı:
**Rafael Əsədov**

Çapa imzalanıb: 15.01.2019
Formatı 60x84 1/8.
Həcmi: 0,5 ç.v.
Tirajı: 500 nüsxə.